***Müstəqillik illərində Azərbaycanla Türkiyə arasında strateji müttəfiqlik səviyyəsinə yüksəlmiş qardaşlıq, dostluq və sıx əməkdaşlıq münasibətləri hazırda özünün ən yüksək və tarixdə heç zaman olmamış qürurverici dövrünü yaşayır. İki ölkənin prezidentləri İlham Əliyevin və Rəcəb Tayyib Ərdaoğanın Bakıda keçirilən "TEKNOFEST Azərbaycan" aerokosmik və texnologiya festivalında verdikləri bəyanatlar yeni dünya nizamında bu birliyin oynadığı önəmli rolu bir daha sübut etdi.***

# Azərbaycan–Türkiyə strateji müttəfiqliyi bölgədə sülhə və tərəqqiyə xidmət edir



Sevindirici haldır ki, tarixin çətin sınaq dövrlərindən keçmiş bu iki dövlətin bir millət kimi formalaşmasına, onların arasındakı doğma münasibətlərə heç bir qüvvə mane ola bilməmişdir. Bu gün isə iki ölkə olan tək millətimiz ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət", ulu öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" tarixi sözlərinin necə bir sarsılmaz həqiqət olduğunu dünyaya təntənə ilə nümayiş etdirir.

Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olunmasına mühüm töhfələr verir. Eyni zamanda, Türk dünyasının daha sıx şəkildə bir araya gəlməsini şərtləndirən ən mühüm amillərdən biri də məhz Azərbaycan və Türkiyənin münasibətlərinin inkişafından və toparlayıcı rolundan keçir.

Azərbaycan Prezidentiİlham Əliyevin dönə-dönə dediyi kimi, Türkiyə–Azərbaycan qardaşlığı, birliyi xalqlarımız üçün əsas yol və üstün tarixi yöndür. Müstəqillik illərində Azərbaycan və Türkiyə daim bir-birinə dəstək göstərmişdir. Artıq 30 ildən çoxdur ki, ölkələrimiz yaxşı günlərdə də, çətin anlarda da bir-birinin yanındadır. Artıq dünya da görür ki, Türkiyə radında iki ölkənin dövlət başçılarının birlikdə olması sarsılmaz qardaşlığın rəmzi, misilsiz birliyin təntənəsi idi.

Tarixi Şuşa Bəyannaməsindən sonra rəsmən strateji müttəfiqlik zirvəsinə ucalan Türkiyə və Azərbaycan münasibətləri yüksələn xətlə inkişaf edir. Bu müttəfiqlik özünü hər yerdə göstərir – siyasətdə, iqtisadi əlaqələrdə, enerji, nəqliyyat layihələrinin həyata keçirilməsində, mədəniyyətdə, təhsildə, ordu quruculuğu istiqamətində və s. Artıq hər iki ölkə bir-birinin inkişaf və tərəqqisinə əlavə güc qataraq dünya miqyasında yeni bir geopolitik mərkəzə çevrilir.




və Azərbaycan bir yerdə inamla addımladıqca bölgəmizdə sülh və tərəqqi də möhkəmlənir və davamlı olur.

Dövlət başçısı İlham Əliyevin "TEKNOFEST Azərbaycan"təntənəsində söylədiyi kimi, İkinci Qarabağ müharibəsi zamanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarında "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" deməsi "Azərbaycana əlavə güc verdi, ruh verdi, inam verdi". Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Bakı festivalından sonrakı günlərdə bir daha dünyaya bəyan etdi: "Artıq bizə bir "AKINCI" məsafəsində yaxın olan can Azərbaycanda "TEKNOFEST" festivalında gənclərimizin "iki dövlət, tək millət, bir festival" ruhu ilə qucaqlaşmalarının şahidi olduq. Azərbaycanlı qardaşlarımızın 28 May Müstəqillik Gününü hər mənada gözqamaşdıran texnologiya festivalı ilə taclandırdıq".

Qarabağ uğrunda 30 illik mübarizəmizin ən önəmli və çətin anlarında Azərbaycan və Türkiyə əvvəlki kimi bir yerdə oldu.

Vətən müharibəsindən sonra Bakının erməni işğalından azad edilməsinə həsr olunmuş hərbi paradda Türkiyə və Azərbaycan hərbçilərinin çiyin-çiyinə Azadlıq meydanına fəxri keçid etmələri 2021-ci ildə də Zəfər pa-

Şuşa Bəyannaməsi qardaşlıq əlaqələrimizi strateji müttəfiqlik səviyyəsinə çatdırdı. Enerjidən mədəniyyətə, müdafiədən ticarət-iqtisadi və humanitar münasibətlərə qədər uzanan geniş bir çevrədə güclü əməkdaşlıq qurulur. İkitərəfli əlaqələrimiz təkcə bölgəyə deyil, bütün dünyaya nümunə ola biləcək bir səviyyəyə çatdı. Şuşa Bəyannaməsində həm də müdafiə sənayesi sahəsində ortaq araşdırma və istehsal fəaliyyətlərinin reallaşdırılması nəzərdə tutulub.

28 may tarixində Bakıda keçirilən "TEKNOFEST Azərbaycan" aerokosmik və texnologiya festivalı da məhz bu istiqamətdə müasir texnologiyaların birgə tətqiq və tətbiq edilməsinin gələcək nəsillərə aşılanması məqsədi daşıyır desək yanılmarıq. Əlbəttə, iki dövlət arasında qərarlaşmış bu siyasət bütün bölgədə dayanıqlı sülhün təmin olunması, etimadın və mehriban qonşuluq əlaqələrinin qurulması, inkişafın sürətlənməsi ilə bölgədə sabitliyin möhkəmləndirilməsi məqsədi daşıyır.

***Əhliman ƏMİRASLANOV,***
***Milli Məclisin Azərbaycan–Türkiyə parlamentlərarası işçi qrupunun rəhbəri, akademik***